Ədəbiyyat QƏZETİ

# Buludlardan gələn səs

**Evliya bağçasında nar ağacı -**
**budağında hüzn çiçəkləri,**
**budağında xatirələrim,**
**dualarım,**
**İki gözüm - iki çeşmə,**
**Axar gedər göz yaşlarım...**



## Zəki MÜREN

*Zəki Müren 1931-ci il dekabr ayının 6-da Bursada dünyaya gəlmişdir. İbtidai məktəbi bitirdikdən sonra İstanbul Boğaziçi Liseyinə daxil olmuşdur. Musiqiyə olan marağını və istedadını hiss edən müəllimləri onun təhsilini Dövlət Gözəl Sənətlər Akademiyasında - indiki Memar Sinan Universitetində davam etdirməsini tövsiyə etmişlər.*

*Zəki Müren hələ tələbə ikən musiqisevərlərin böyük rəğbətini qazanmışdır. O, "Sənətin günəşi" və "Paşa" kimi tanınmışdır. 1955-ci ildə "Manolyam" adlı şərqisi ilə Türkiyədə ilk dəfə "Altun plak" mükafatını almış, 1991-ci ildə isə, Dövlət sənətçisi adına layiq görülmüşdür.*

*Zəki Müren bir çox türk müğənnisi kimi, filimlərə çəkilmiş, mahnı mətnləri yazmış və bu mahnı mətnlərinə musiqi bəstələmişdir. Mübaliğəsiz demək olar ki, o həm də modern türk şeirinin yaradıcılarından biri idi.*

### ARADIĞIM DÜNYA

Mənim dünyamda
qar buğda-buğda yağar,
Ağaclar qışın ortasında çiçək açar.
Mənim dünyamda
sərt poyraz
ılıq-ılıq əsər qüzeydən,
əriklər, gilənarlar gömgöy olar -
heç yetişməz ki...
Mənim dünyamda
eşq, vəfa çarşılarda satılar,
mərhəmət könüllərdə...
Bir başqa dünya
aradım, buldum -
Onda da
qar buğda-buğda yağar,
Ağaclar
qışın ortasında çiçək açar,
sərt poyraz
ılıq-ılıq əsər qüzeydən,
əriklər,gilənarlar gömgöy olar -
heç yetişməz ki...
Onda da
eşq, vəfa çarşılarda satılar,
mərhəmət könüllərdə...
Onu da dəyişdirəcəyəm -
ver əlini, ÜÇÜNCÜ DÜNYA!

### BULUDLARDAN GƏLƏN SƏS

Buludlardan gələn səs,
qurumuş,
çat-çat olmuş bağrıma
yağış göndər,
bərəkət göndər.

Buludlardan gələn səs,
xəyanətin - şimşək-şimşək,
həsrətin - mor-mor,
eşqin - sızı-sızı...

Buludlardan gələn səs,
qurumuş,
çat-çat olmuş
bağrım olmasa,
hara yağar yağışın,
hara yağar bərəkətin?

Buludlardan gələn səs,
göyqurşağından
bir çələng göndər toyuma,
qarası olmasın,
zatən, qarası olmur ki,
göyqurşağının...

Buludlardan gələn səs,
balacaydım,
Biri "Allah" deyəndə -
göyə baxardım,
İndi də eləyəm...

Buludlardan gələn səs,
necə yağır
vaxtsız-vədəsiz yağışlar?
Fevralla avqust qardaşdılarmı?

Buludlardan gələn səs,
könlüm sapsarı,
könlüm sapsarı,
könlüm sapsarı...
Eşqimin hər anı payız,
eşqimin hər anı payız,
eşqimin hər anı payız...

Karvan bulud, karvan bulud,
Qəflət yuxusudurmu
yuxun sənin,
Oyan bulud, oyan bulud...
Sənə bağrımdan bir ovuc qor verim,
Mənə bağrından
bir ovuc su ver...

"Havada leylək görsək,
bəxtimiz gətirəcək" - deyərdin...
Baxdım... Baxdım... Baxdım...
Göyüzünü qarğalar bürümüşdü...

Evliya bağçasında nar ağacı -
budağında hüzn çiçəkləri,
budağında xatirələrim,
dualarım.
İki gözüm - iki çeşmə,
Axar gedər göz yaşlarım...

Halva payladım öksüzlərə
qəndil gecələrində,
savab olar deyə,
ovsanata keçər deyə...

"Gözlərimdən öpmə,
ayrılarıq" - deyərdin.
Öpmədim,
nə oldu, ayrılmadıqmı?

### GÖZLƏRİMDƏN ÖPMƏ

"Gözlərimdən öpmə,
ayrılarıq" - deyərdin.
Öpmədim,
nə oldu, ayrılmadıqmı?
Uğursuzluq gətirər deyə
firuzə qaşlı üzüyümü
dənizə atdın,
Dəniz qızı taxdı barmağına,
bumu uğur?
Ay təzəcə doğmuşdu,
üzünə baxdım,
göz bəbəklərimə düşdü əksin...
Nə oldu, birdən-birə
Ayın gümüş nuruna
qoşulub getdin...
Aymı sənin sevgilindi,
yoxsa mən?

### QƏDƏHİMDƏ BUZ PARÇASISAN

Qədəhimdə buz parçasısan,
udum-udum içdikcə
udum-udum yanıram.
Sən aysberqlərin
nəvələrinin nəvəsi,
Mən Magellanam,
qütblərdə kəşf etdim səni,
qızmar ekvator kimi!
Aləmi qatdım bir-birinə -
indi Reyn Nilə tökülür,
Niaqara Şap dənizinə,
Van gölünü də
Koloradoya axıda bilsəydim, ah...

Xəyallarım isti,
buz əridi öksüz qədəhimdə,
Hər damlada
Səni andım, səni andım, səni andım,
Hər damlada
yandım, yandım, yandım...

Ekvatorda yanmayıb neyləyəsən?..

### ALIN YAZIM

Allah atanın
qələmimi sınmışdı,
mürəkkəbimi qurumuşdu,
alın yazımı yazarkən?

Yoxsa
sənin adın
belə asan gəldi ona?
Bəlkə beş hərfli imiş əlifba?
Bəlkə beş hərf bilirmiş elə, Allah ata?
Beşi də qapqara?
Yox idimi
yaşılı, ağı, masmavisi?

## OVCUMDAKI DUA

Ovcumdakı dua
barmaqlarımın
arasından süzüldü,
Sənə şam düzəltdim
ürəyimin yağından.
Yenə gözlərində dəfn olundum -
Məzarsız ölülər,
ölüsüz məzarlar...
Səni dəfnə yarpağında,
gicitkəndə
günəbaxan çiçəyində aradım,
Səhərə yaxın doğan
solğun Ay kimi
üşütdün içimi...
Gəl, dağların başı, gəl,
Gəl, dəli könlümün dəli yoldaşı, gəl,
Gəl, ayaqqabılarının
bağı açılmış gəl,
Gəl, saçların islaq gəl,
Mənim əllərimdə dua...
Sən də əllərində dua, gəl...

## QARAÇI UŞAQLARI

Bir gün
qupquru, sapsarı yarpaqların
üstündən keçib gələcəksən,
gözlərində acı, yaşıl vəfasızlıq...
Sonu olmayan bu yolda
tək yarpaqlı ağacın
hüznlü kölgəsində
gözləyəcəyəm səni.

Gələcəksən -
saçlarında riya...
Soyuq nəfəsin
üşüdəcək barmaqlarımı...
Qaraçı uşaqları
çör-çöpdən bir ocaq çatacaqlar
üzbəüzdəki təpədə.
Tüstünün hənirini duyan
bir köpək hürəcək,
Bir türkü saracaq qəlbimizi,
buğlu-buğlu,
Ağlayacaqsan,
amma yanaqların
qupquru qalacaq,
köhnə yalanların
gözlərindən oxunacaq...

Bir gün
qupquru, sapsarı yarpaqların
üstündən keçib gələcəksən,
gözlərində acı, yaşıl vəfasızlıq...
Sonu olmayan bu yolda
bir vadidə gözləyəcəyəm səni.
Böyürtkən yığan
qaraçı uşaqları bizə baxıb,
bənizi solmuş bir türkü
oxuyacaqlar:



"Mütləq sevmişlər bir-birlərini..."
Türkümüz - nəhəng binaların
pəncərələrində çilik-çilik,
Türkümüz - lampa şüşələrində his,
Türkümüz - Vyana ormanlarında simfoniya,
Türkümüz - qüssə, nisgil, üzüntü...
"Əsl sevgidir",
"Ya da bir gün -
bir-birlərini sevəcəklər"
deyəcəklər...

* * *

Günəşsiz - qısır bir səhər çağı
Bursa küçələrində
vurdular məni,
Yamyaşıl qan axdı
damarlarımdan,
Qoca süpürgəçi
qabarlı əllərilə
oxşadı saçlarımı.
Sərxoşlar
və kif iyi verən yorğun gecə qızları
məhəl qoymadan
keçdilər yanımdan,
üzləri solğun, üzləri sapsarı...

Günəşsiz - qısır bir səhər çağı
Bursa küçələrində
vurdular məni,
Həbsxana divarları soyuqdumu?
Həbsxana pillələnləri
avqustda da nəmdimi?
O gündən
günəşsiz - qısır səhərlərdə
yaralarım açılar...
Qoca süpürgəçinin
qabarlı əlləri
toxununca saçlarıma
Ətim ürpəşər, qorxaram...
Günəşsiz - qısır səhərlər
qatildimi?

* * *

Bəs, dəyişməyəcəkdin,
Qoyub getdiyim kimi
qalacaqdın?
Rəng-ruhun dəyişmiş,
xasiyyətin dəyişmiş!

Bəs, ayrıldığımız
o yağışlı havadakı kimi
islaq qalacaqdın?
Saçların qurumuş,
qupquru qurumuş!

Bəs yaşıl geyinməyəcəkdin?
Bəs...
Bəs...
Bəs məni həp sevəcəkdin?
Nə vəfasız imişsən sən!
Nə əqrəb imişsən sən!

* * *

Bütün xatirələrim
Qaf dağının ardında qaldı,
Getdi, nəyim vardısa,
bir gecəquşunun bəbəklərində;
"Yel üfürdü,
Sel götürdü,
Kor aldı..."
Nəyim vardı
bu mor dünyada
sevməkdən savayı?
Qum tutdu
bulaqlarımın gözünü,
Saraldı içimdəki yarpaqlar,
Bu gün-sabah
qopub töküləcəklər...
Titrədir qəlbimi
hər səhər
üzbəüz minarədən
ucalan azan səsi.
Bütün xatirələrim
Qaf dağının ardında qaldı,
Getdi, nəyim vardısa,
bir gecəquşunun bəbəklərində;
Sındı qanadım,
Uça bilmədim arxasınca...

## ALLAHMISAN SƏN

Sənə bir türkü qoşdum, könlümcə,
zülm dolu,
hicran dolu,
mən dolu.
"Eşq doğular, yaşayar, ölər"
deyərdin.
Bax, doğuldu, yaşadı,
amma ölmədi.
Allahmısan sən?
Sənə bir türkü qoşdum, könlümcə,
yalan dolu,
riya dolu,
sən dolu.
Yaşamağı öyrənərkən
öldürdün məni.
Allahmısan sən?

## LİMAN

Hər limanda bir xatirə qalır...

Saçlarımız dəfnə,
sevgimiz yasəmən ətri verərdi,
Sən şorba bişirərkən,
mən odun doğrayardım...
"Palçıqlı ayaqqabınla
evə girmə" - deyərdin,
sözünə qulaq asardım...

Sənə çiçək gətirərdim
yamyaşıl vadidən,
Sevgi gətirərdim,
Şəfqət gətirərdim, burcu-burcu.

Rüzgar şişirdərdi yelkənimizi...
Yalnız sənin üçün yaşamaq,
Yalnız sənin üçün ölmək -
Bir başqa dərdim yox idi ki...

Hər limanda bir xatirə qalır...

## SƏNİ İSTƏYİRƏM

Qarın ortasında qızılgül...
Niyə anlamırsan,
səni istəyirəm!

*Hazırladı:*
**DİLSUZ**

